# Məsud Pezeşkianın səfəri münasibətlərin inkişafına ciddi təkan verəcək

"İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri çoxdan gözlənilirdi. İran Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqain İran Prezidentinin bu səfərinin hazırlanması üçün aylarla səy göstərildiyini bildirmişdi.

Buna baxmayaraq səfərin reallaşmasına saatlar qalmış İranın Bəndər Abbas şəhərindəki Şəhid Rəcai limanında baş verən partlayışla əlaqədar olaraq kluarlarda səfərin bəlkə də təxirə düşə biləcəyi ilə bağlı skeptik yanaşmaların da şahidi olduq. Lakin səfər buna baxmayaraq baş tutdu".

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, İran Prezident Administrasiyasının siyasi şöbəsinin müdir müavini Mehdi Sənai isə Pezeşkianın Bakıya gəlişinin intensiv olacağını və onun faciə ilə bağlı vəziyyətə şəxsi nəzarət etməsi zərurətinə görə səfərin bir gün çəkəcəyini deyib. Bununla belə Prezidentin proqramına baxdığımız zaman rəsmi görüşlər, sənədlərin imzalanması, birgə biznes-forumda iştiraka qədər, Pezeşkianın Bakı gəzintisi də daxil olmaqla səfərin olduqca geniş gündəliyə malik olduğunu görürük. Elə məhz buna görədir ki, Bəqain bu səfəri qiymətləndirərkən "İranın Azərbaycanla əlaqələri çox önəmlidir" deyə xarakterizə etdi. Bu səfər, həqiqətən, iki ölkə arasında yeni səhifə aça bilər.

Deputat qeyd edib ki, Bəqainin İran Prezidentinin səfəri ərəfəsində Cənubi Qafqazın stabilliyində təyinedici rola sahib ölkə kimi Azərbaycanı ölkəsi üçün əhəmiyyət kəsb edən aktor adlandırması da çox vacib açıqlamadır: "Səfərə qədər, səfər çərçivəsində səsləndirilən fikirlər, verilən bəyanatlar da səfərin məqsədinin olduqca uzunmüddətli, dayanıqlı, siyasi iradə əsaslı olduğundan xəbər verir. Azərbaycan Prezidenti bildirdi ki, BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində Azərbaycan və İran ənənəvi olaraq bir-birini dəstəkləyir. Dövlət başçımız "Şimal-Cənub" nəqliyyat dəhlizinin əməkdaşlıq layihələrində xüsusi yer tutan vacib amil üzərində bir daha dayandı və bildirdi ki, lazımi infrastruktur Azərbaycan tərəfindən var, qarşıda duran hədəf isə artan yüklər üçün imkanların genişləndirilməsidir. İran və Azərbaycan nəinki "Şimal-Cənub", "Şərq-Qərb" dəhlizini də inkişaf etdirə bilərlər. Bunun üçün hər iki tərəfdə mütəmadi əlaqə, siyasi iradə vacibdir. İki lider açıqlamaları zamanı birgə istehsal motivasiyasının qurulmasını təklif etməklə təşkilati fəaliyyətin makroəsasları üzərində də dayandılar".

A.Badamov qeyd edib ki, dövlət başçılarının iştirakı ilə keçirilən biznes-forum ölkələrarası ticari, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Prezident İlham Əliyev biznes-forumda "Şimal-Cənub" nəqliyyat dəhlizinin ancaq tranzit daşımaları üçün yox, həm də hər iki ölkənin sahibkarlıq subyektlərinin sərmayələri əsasında yeni istehsal müəssisələrinin yaradılmasında vacib olduğunu bildirdi. Həm də növbəti biznes-forumda daha çox biznes strukturlarının iştirak edəcəyinə inandığını ifadə etdi.



Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin həm "Şimal-Cənub", həm də Araz dəhlizi ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycanla İran arasında ticari-iqtisadi əməkdaşlıqda yeni səhifə açılacağına mesajdır. Belə həvəsləndirici şəraitdə görüşdə də bildirildiyi kimi, istehsalçılar, sahibkarlar birgə istehsalı inkişaf etdirə, birlikdə məhsullar istehsal edə bilərlər. İki ölkənin iqtisadi potensialını artırmaq üçün siyasi səylərini birləşdirməsi vacibdir.

A.Badamov qeyd edib ki, İran Prezidentinin ölkəmizə səfərinin ən həssas məqamlarından biri Pezeşkianın özünü Təbrizdəki, Ərdəbildəki kimi yad hiss etmədiyi fikrini səsləndirməsidir: "Düşünürəm ki, bu, İranda yaşayan soydaşlarımız üçün də vacib açıqlamadır. Digər bir mühüm açıqlama isə Pezeşkianın yaxın gələcəkdə yenidən Azərbaycana səfər edəcəyi anonsunu verməsidir. Bütövlükdə səfərin iki ölkə arasında münasibətlərin inkişafına ciddi təkan verəcəyi qədər bölgənin təhlükəsizliyi, inkişafı, rifahı üçün də əsas olduğunu vurğulamalıyıq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 30 aprel (№86).- S.5.